# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

09 aprel 2026-cı il, cümə axşamı

№ 059 (7126)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# İlham Əliyev və Mehriban Əliyeva Milli Aviasiya Akademiyasında...



Bax səh. 2

## Bakıdan Tehrana təbrik zəngi

Bax səh. 2

## Qloballaşma şəraitində dil siyasəti

Bax səh. 3

## TÜRKPA "Ağıllı şəhər və kənd haqqında" model qanun hazırlayır



Bax səh. 3

## 38 gün sonra...

Yaxın Şərqdə atəşkəs elan olundu

Bax səh. 6

## "Anadolu Ankası - 2026"...



Bax səh. 4

## Güzəştli ipoteka bazarı böyüyür

Bax səh. 4

## Yeni neft qiymətləri və hasilat proqnozları

Bax səh. 5

## Xarici təsirlərə nəzarət gücləndirilir

Bax səh. 7

# Hörmüz "düyünü"?



Boğaz uğrunda mübarizə kəskinləşir - Körfəz ölkələri "ofsayd"a düşüb?

Bax səh. 5

# Azərbaycanla Qazaxıstanın üçüncü ölkələrə birgə investisiya yatırmaq potensialı var

## Prezident İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Qazaxıstan Respublikasının xarici işlər naziri Yermek Koşerbayevi və nəqliyyat naziri Nurlan Sauranbayevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan ikitərəfli əlaqələrinin əməkdaşlıq və qardaşlıq ruhunda inkişaf etdiyini məmnunluqla vurğulayaraq, dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı aparılmış müzakirələrin, qəbul olunmuş qərarların, həmçinin Azərbaycandan Qazaxıstana, Qazaxıstandan isə ölkəmizə müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin səfərlərinin xalqlarımızı və ölkələrimizi daha da yaxınlaşdırdığını, qarşılıqlı fəaliyyətin potensialını möhkəmləndirdiyini dedi.

Dövlətimizin başçısı birgə investisiya fondunun imkanlarından tam istifadə ediləcəyinə ümidvarlığını bildirdi, bir neçə layihənin artıq işlənmə mərhələsində olduğunu vurğuladı və Azərbaycanla Qazaxıstanın üçüncü ölkələrə birgə investisiya yatırmaq potensialına toxundu.

Prezident İlham Əliyev Qazaxıstanın xarici işlər və nəqliyyat nazirlərinin Azərbaycana səfərinin uğurlu olacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə minnətdarlığını bildirən Qazaxıstanın xarici işlər naziri dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Yermek Koşerbayev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Kasım-Jomart Tokayevə çatdırmağı xahiş etdi.

Qonaq Qazaxıstanda Azərbaycan Prezidentinə çox böyük hörmətlə yanaşıldığını vurğuladı.

Görüşdə Azərbaycanla Qazaxıstan arasında münasibətlərin bir çox sahədə, o cümlədən siyasi, iqtisadi, nəqliyyat, logistika, investisiyalar, enerji, həmçinin yaşıl enerji və digər istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd edilərək, əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı Orta Dəhliz, Trans-Xəzər Yaşıl Enerji Dəhlizi və fiber-optik xətti layihələrinə toxunuldu, bu çərçivədə Azərbaycanla Qazaxıstanın uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşma prosesinin və Ermənistan ərazisindən keçəcək TRIPP layihəsinin regional əməkdaşlıq və nəqliyyat bağlantıları baxımından rolu qeyd edildi.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu tərəfdaşlığı vurğulandı və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

# Bakıdan Tehrana təbrik zəngi



Aprelin 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb.

Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb.

# İlham Əliyev və Mehriban Əliyeva Milli Aviasiya Akademiyasında...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər.







AZƏRTAC xəbər verir ki, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Samir Rzayev dövlətimizin başçısına və birinci xanıma mərkəzin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub.

Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Burada Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır.

Mərkəzdə, həmçinin hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsinə imkan verən müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır.

Bundan başqa, Mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən "A320/A321 NEO CEET" tipli yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir.

Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək.

Mərkəz müasir aviasiya sahəsinin tələblərinə uyğun olaraq kadr hazırlığını həyata keçirən ixtisaslaşmış tədris strukturu kimi aviasiya mütəxəssislərinin nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasında mühüm rol oynayacaq.

Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.









# Qloballaşma şəraitində dil siyasəti

Ölkəmizdə milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə qayğı dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. O cümlədən Prezident İlham Əliyev Azərbaycan dilinin inkişafına, onun saflığının qorunmasına xüsusi həssaslıqla yanaşır. Belə həssas yanaşmanın təsdiqi olaraq dövlətimizin başçısı tarixin bu günündə - 2013-cü il aprelin 9-da imzaladığı müvafiq sərəncamla "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nı təsdiqləyib.

## Dövlətin dil siyasətində ardıcıllıq

Azərbaycan dilini bugünkü yüksək statusu qazanmasınadək uzun yol keçilib, bir sıra maneələr dəf edilib, hazırda da ciddi çağırışlar var. Prezident İlham Əliyev Azərbaycan dili ilə bağlı mühüm məsələlər barədə həm ötən il noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi münasibətilə keçirilən iclasda, həm də cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində ətraflı bəhs edib. Dövlətimizin başçısı yerli televiziya kanallarına müsahibəsində xalqımızın tarixin müxtəlif dönəmlərində yaşadığı taleyə diqqət çəkib. Nə demək olar, qismətimizə ağır tale düşüb. Təzada baxın ki, biz həm əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, həm də əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Təxminən 70 il davam edən sovet rejimi də müstəmləkəçiliyin başqa bir forması idi. Təbii ki, müstəmləkə quruluşları xalqımızın milli-mənəvi dəyərlər sisteminə, o cümlədən də dilimizə təsirsiz ötüşməyib. Bununla belə, biz dilimizi yaşatmağa nail olmuşuq. Müstəqillik dövründə hər sahədə uğurlar qazandığımız kimi, zamanında dilimizə olan yad təsirləri də azaldırıq.



Bəhs olunan Dövlət Proqramında da vurğu edildiyi kimi, respublikamızda Azərbaycan dilinə qayğı siyasətinin əsası böyük siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. Keçmiş SSRİ-də ittifaq Konstitusiyasının qəbulundan sonra milli dillərin sıxışdırılması prosesi daha da güclənmişdi. Buna baxmayaraq, o dövrdə respublikamıza rəhbərlik edən Heydər Əliyev ana dili məsələsində öz mövqeyini hər zaman çox qətiyyətlə qorumağa müvəffəq olub. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Heydər Əliyev 73-cü maddənin aşağıdakı redaksiyada verilməsi təklifini irəli sürüb: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dövlət quruculuğu strategiyasının tərkib hissəsi olan dil siyasətinin nəticəsidir ki, ötən əsrin 70-ci illərində Azərbaycan dilinin tarixi intensiv şəkildə öyrənilib, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılıb. Ali məktəblər üçün yazılmış 4 cildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə milli dilçilik elminin inkişafına töhfə kimi qiymətləndirilərək respublikanın Dövlət mükafatına layiq görülüb.

Sonrakı mərhələdə Heydər Əliyev Azərbaycan dili uğrunda mücadiləsini 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə respublikamızda ikinci dəfə hakimiyyətə gəldikdən sonra davam etdirib. Müstəqil Azərbaycanın Konstitusiyası hazırlanarkən dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif müzakirələr aparılırdı. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapıb.

Ana dilimizi qorumaq üçün mühüm addımlar atan Ulu Öndərin siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısı qloballaşma şəraitində dilimizin yad təsirlərdən qorunmasını, saflığının təmin edilməsini hədəfləyən bir sıra sənədlər imzalayıb. Prezident İlham Əliyevin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" 2012-ci il 23 may tarixli, "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" 2012-ci il 29 may tarixli, "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" 2018-ci il 17 iyul tarixli sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2018-ci il 1 noyabr tarixli fərmanı, həmçinin "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Terminologiya Komissiyası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2012-ci il 26 noyabr tarixli qərarı ana dilinə dövlət qayğısının artırılması, dilçilik sahəsində fundamental və tətbiqi araşdırmaların keyfiyyətinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradıb.

Qloballaşmanın meydana çıxardığı çağırışlardan biri də milli dillərin qorunması ilə bağlıdır. Reallıq həqiqətən çox kədərlidir. Verilən məlumatlara görə, ötən hər gün ölü dillərin siyahısı genişlənir və milli dillər üçün təhdidlər daha da artır. Etiraf edək ki, təhdidlər Azərbaycan dili üçün də yox deyil və bu, bir sıra amillərdən qaynaqlanır. Prezident İlham Əliyev Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dilimizin saflığının qorunması ilə bağlı növbəti dəfə narahatlığını bildirib və elm adamlarına, geniş ictimaiyyətə mühüm çağırışlar edib. "On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda, Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram", - deyə dövlətimizin başçısı vurğulayıb.

Bəhs olunan Dövlət Proqramında da qloballaşma şəraitinin dillə bağlı yaratdığı çağırışlar nəzərə alınmaqla bir sıra məqsəd və vəzifələr müəyyənləşdirilib. Sənəddə vurğulanır ki, Dövlət Proqramının məqsədi

## Dövlət Proqramının məqsəd və vəzifələri

Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılmasını, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsini, ölkədə dilçilik araşdırmalarının əsaslı surətdə yaxşılaşdırılmasını, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini təmin etməkdir.

Dövlət Proqramının əsas vəzifələri isə aşağıdakılardır:

-Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun inkişafı, qorunması, elektron məkanda daha geniş istifadəsi və ölkədə dilçiliyin inkişaf etdirilməsi mexanizminin yaradılması;

-Dilçilik sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasının təkmilləşdirilməsi;

-Dünya dilçilik elminin müasir inkişaf meyillərini nəzərə almaqla, elmi tədqiqatların prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

-Dilçilik sahəsində dünyanın aparıcı elmi mərkəzləri ilə əməkdaşlığın inkişaf etdirilməsi;

-Dilin inkişafı və tədrisi məsələlərinin uzlaşdırılması və təkmilləşdirilməsi;

-Dilçi alimlərin müasir informasiya və kommunikasiya texnologiyalarının yaradılmasında iştirakının təmin edilməsi;

-Dil (ədəbi dil) və mədəniyyət tarixinin daha əsaslı tədqiqini təmin etmək üçün qədim dillərin tarixinin öyrənilməsi;

-Dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazasının təkmilləşdirilməsi;

-Dil və nitq mədəniyyətinin yüksəldilməsi;

-Azərbaycan dilinin lüğət tərkibinin və qrammatik normalarının sistemləşdirilməsi;

-Azərbaycanda dil situasiyalarının və dil əlaqələrinin öyrənilməsi.

İndiyədək Dövlət Proqramının icrası çərçivəsində Azərbaycan dilinin dövlət dili kimi inkişafı, tədrisi, lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik quruluşunun qorunması, söz yaradıcılığı prosesinə nəzarətin gücləndirilməsi və nitq mədəniyyəti sahəsində kompleks tədbirlər həyata keçirilib. Həmçinin dilin inkişafını və ədəbi dil normalarının qorunmasını təmin edən qanunvericilik bazası təkmilləşdirilib.

*Mübariz ABDULLAYEV*

# TÜRKPA "Ağıllı şəhər və kənd haqqında" model qanun hazırlayır

Qloballaşan dünyada türk dövlətlərinin və xalqlarının birliyi zərurətə çevrilib. Sovetlər ittifaqı dağıldıqdan sonra türk dövlətləri ilə münasibətlər qurmaq və inkişaf etdirmək Azərbaycanın xarici siyasətində prioritet olub. Artıq bu gün türk dünyasının birliyi reallığa çevrilməkdədir. Türk Dövlətləri Təşkilatının yaranması, siyasi, iqtisadi, mədəni, o cümlədən hərbi sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində qəbul olunan qərarlar türk birliyinin qlobal gücə çevrilməsi yolunda atılan addımlardır. Azərbaycan türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır.

**TÜRKPA-da qanunvericilik təcrübəsi aparılır**

Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Xatırladaq ki, Türk Dövlətləri Parlament Assambleyası 21 noyabr 2008-ci ildə İstanbul şəhərinin Dolmabaxça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişlə təsis olunub. 29 sentyabr 2009-cu ildə Azərbaycanın paytaxtı Bakı şəhərində TÜRKPA-nın I plenar sessiyası keçirilib. Plenar sessiyada TÜRKPA-nın Reqlamenti, Katibliyin Əsasnaməsi və Bakı Bəyannaməsi, Katibliyin daimi əsasla Bakı şəhərində yerləşməsi haqqında qərar qəbul edilib. TÜRKPA sədrliyi rotasiya üsulu ilə ildə bir dəfə bir ölkədən digərinə keçməkdədir. TÜRKPA Katibliyi Bakı şəhərində yerləşən və beynəlxalq təşkilat statusuna malik olan qurumdur.

Təşkilatın məqsədləri sırasına parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərmək, eləcə də tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq milli qanunvericiliklərin yaxınlaşdırılması və digər məsələlərdə qarşılıqlı fəaliyyətin daha da sıxlaşdırılması daxildir. Təşkilat həm də, tərəflər arasında siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsinə kömək göstərir.

Eyni zamanda, təşkilata üzv ölkələrin qanunvericiliklərinin, o cümlədən mədəni irsin və tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə türk dövlətləri üçün ümumi əhəmiyyət kəsb edən dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsinə yönəlmiş qanunvericiliklərinin inteqrasiyası üzrə tövsiyələr vermək də TÜRKPA-nın fəaliyyətində vacib yer tutur. Bundan başqa, türk dövlətləri və digər region ölkələri arasında qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlığın inkişaf etdirilməsi diqqət mərkəzindədir.




**Təşkilatın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclasında...**

Yeri gəlmişkən, aprelin 7-də Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının İqtisadi əməkdaşlıq komissiyasının "TÜRKPA üzvü olan dövlətlərin birgə iqtisadi fəaliyyətinin həyata keçirilməsinin reallıq və perspektivləri" mövzusunda 13-cü iclası keçirilib. Qazaxıstan Parlamenti Məclisinin üzvü, TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının sədri Anas Bakkojayev türk dövlətlərinin dünya iqtisadiyyatındakı payı, eləcə də qarşılıqlı ticarət dövriyyəsinin həcmi barədə danışıb. O vurğulayıb ki, türk dövlətləri arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın genişləndirilməsi, daxili ticarətin artırılması iqtisadi diversifikasiyanın təmin olunmasına, ümumi iqtisadi potensialın daha səmərəli reallaşdırılmasına xidmət edir.

Sonra Milli Məclisin komitə sədri Fazil Mustafa çıxış edib. O, Prezident İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" fikrinə istinad edərək bildirib ki, TÜRKPA çərçivəsində birliyin davamlılığının mühüm şərtlərindən biri də güclü iqtisadi əsasların formalaşdırılmasıdır. Komitə sədri vurğulayıb ki, türk dövlətləri arasında iqtisadi inteqrasiya prosesi müasir dövrün çağırışıdır. Bu baxımdan, TÜRKPA çərçivəsində parlamentlərarası əməkdaşlıq iqtisadi inteqrasiyanın normativ-hüquqi və institusional bazasını gücləndirmək üçün mühüm rol oynayır.

F.Mustafa Azərbaycanın türk dövlətləri arasında əməkdaşlığın dərinləşdirilməsini prioritetdə saxladığını deyib və bugünkü iclasın uzunmüddətli əməkdaşlığın praktik mexanizmlərinin müzakirəsi baxımından səmərəli olacağına inamını bildirib.

Milli Məclisin deputatı Ağalar Vəliyev çıxışında TÜRKPA-ya üzv dövlətlər arasında mövcud iqtisadi layihələrin, o cümlədən birgə müəssisələr və investisiya təşəbbüslərinin, eləcə də azad iqtisadi zonaların imkanlarının daha geniş araşdırılmasının və bu əsasda perspektivli əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsinin vacibliyini vurğulayıb. Deputat qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət TÜRKPA çərçivəsində çoxşaxəli iqtisadi əlaqələrin genişlənməsinə, ticarət münasibətlərinin stimullaşdırılmasına və qarşılıqlı investisiyaların təşviqinə əlverişli şərait yaradır. Bildirilib ki, Milli Məclis tərəfindən bu istiqamətdə qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə ardıcıl iş aparılır.

Sonra TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, Türkiyə Böyük Millət Məclisinin üzvləri Mahmut Rıdvan Nazırlı, Cemal Enginyurt, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma, Şimali Kiprin Bakıdakı nümayəndəsi Ufuk Turganer, TÜRKPA Baş katibinin müavini Muhammet Alper Hayali, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatı Katibliyinin departament direktoru İsrail Tilegen çıxış ediblər. Onlar TÜRKPA çərçivəsində ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlığın konseptual əsaslarının müəyyənləşdirilməsi, eləcə də səmərəli əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra Anas Bakkojayev iclasın əsas mövzu üzrə hazırlanmış tövsiyə qərarının layihəsini, komissiya sədrinin müavini Bekmurza Ergeşov hesabat məruzəsinin layihəsini, komissiyanın katibi Baurjan Datkayev "Birgə müəssisələr haqqında" model qanun layihəsini müzakirəyə təqdim ediblər. Komissiya üzvləri hesabat məruzəsini, tövsiyə qərarını və model qanun layihəsini təsdiqləyiblər.

İclasda Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin Mülki hüquq qanunvericiliyi sektorunun müdiri Azər Səmədov Azərbaycan tərəfinin təşəbbüsü ilə hazırlanan və komissiyanın gələn iclasında baxılması nəzərdə tutulan "Ağıllı şəhər və kənd haqqında" model qanunun layihəsi barədə məlumat verib.

Sonda komissiyanın növbəti iclasının gündəliyi, mövzusu və tarixi müəyyənləşdirilib.

**Seminarda nələr müzakirə olunub?**

Qeyd edək ki, TÜRKPA-nın İqtisadi əməkdaşlıq komissiyasının 13-cü iclası çərçivəsində "Birgə iqtisadi fəaliyyətin həyata keçirilməsi üçün perspektivli sənayelər: aktorlar və amillərin birləşdirilməsi yolları" mövzusunda seminar keçirilib. Seminarda TÜRKPA İqtisadi əməkdaşlıq komissiyasının sədri, Qazaxıstan Parlamenti Məclisinin üzvü Anas Bakkoyayev, İqtisadi əməkdaşlıq komissiyasının sədr müavini, Qırğız Respublikası Joqorku Keneşinin üzvü Bekmurza Ergeşov, Milli Məclisin komitə sədri Fazil Mustafa, İqtisadi əməkdaşlıq komissiyasının üzvü, Türkiyə Böyük Millət Məclisinin deputatı Mahmut Rıdvan Nazırlı, TÜRKPA Baş katibinin müavini Muhammet Alper Hayali, Türkiyənin Azərbaycandakı səfirliyinin ticarət üzrə baş müşaviri Gülixar Yavaş və digərləri çıxış ediblər.

Çıxışlarda TÜRKPA-ya üzv ölkələr arasında birgə iqtisadi fəaliyyətin reallıqları və perspektivləri, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, qabaqcıl təcrübələrin öyrənilməsi ilə bağlı fikirlər səsləndirilib. Türk dövlətlərinin iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi, iqtisadi təhlükəsizliyin təmin edilməsinin vacibliyi vurğulanıb. Bildirilib ki, birgə səmərəli əməkdaşlıq və inteqrasiya, iqtisadi, ticarət, təhlükəsizlik sahələrində qarşılıqlı faydalı əlaqələr iqtisadi artımın sürətləndirilməsinə geniş imkanlar yaradır, ölkələrin hərtərəfli tərəqqisinə xidmət edir. Fikir mübadiləsi zamanı Türk dünyasında iqtisadiyyatın müxtəlif sektorlarında birgə layihələrin icrası imkanları, aktorların və amillərin effektiv əlaqələndirilməsi yollarının müəyyənləşdirilməsi, dayanıqlı inkişafın təşviqi, ticarət və investisiya əlaqələrinin intensivləşdirilməsindən söhbət açılıb. Tarixi, mədəni və coğrafi baxımdan bir-birinə yaxın olan üzv ölkələr arasında sıx əməkdaşlığın davamlı inkişafı təmin edəcək birgə təşəbbüslərin həyata keçirilməsinə töhfə verəcəyi bildirilib.

*Nərdar BAYRAMLI*




# “Anadolu Ankası - 2026”...

## Azərbaycan hərbçiləri beynəlxalq axtarış-xilasetmə təlimində iştirak edir

*Nardar BAYRAMLI*

Türkiyənin Konya şəhərində müxtəlif ölkələrin hərbçilərinin iştirakı ilə “Anadolu Ankası - 2026” (“Anatolian Phoenix - 2026”) beynəlxalq axtarış-xilasetmə təliminə start verilib. Müdafiə Nazirliyindən verilən məlumata görə, təlimin məqsədi müxtəlif ölkələrin axtarış-xilasetmə qüvvələri arasında qarşılıqlı fəaliyyətin və operativ uyğunluğun artırılması, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, şəxsi heyətin peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, qəza vəziyyətlərində ekipaj üzvlərinin axtarılması və xilas edilməsi, suda və quruda, eləcə də çətin relyef şəraitində xilasetmə əməliyyatlarının effektiv icrası, pilotların təhlükəsiz təxliyəsi, havadan dəstəyin təmin olunması və aviayönləndiricilərin fəaliyyətinin təkmilləşdirilməsi üzrə bacarıqların inkişaf etdirilməsidir.

Qeyd edək ki, aprelin 17-dək davam edəcək beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları, paraşüt-desant və axtarış-xilasetmə xidmətinin mütəxəssisləri, aviayönləndiricilər, texniki heyət və aviasiya vasitələri təmsil edir.

Məlumdur ki, Azərbaycan dost və tərəfdaş ölkələrlə davamlı olaraq birgə hərbi təlimlər keçirir. Buna nümunə olaraq, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlılarının “Üç qardaş” hərbi təlimlərini göstərmək olar. Eləcə də Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə “Eternity” kompüter dəstəkli komanda-qərargah təlimini də xatırlamaq olar. Beynəlxalq əməkdaşlıq çərçivəsində daha bir hərbi təlim isə Qazaxıstanda keçirilib. 2024-cü il iyulun 8-dən 17-dək Qazaxıstanın qərbində yerləşən Manqistau vilayətində Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın hərbi qüvvələrinin iştirakı ilə regional beynəlxalq təlimlər baş tutub. Təlimlərə təxminən 4 min hərbi qulluqçu və 700-dək hərbi texnika cəlb olunub.

İki qardaş ölkə olan Azərbaycanla Türkiyənin keçirdiyi birgə təlimlər isə artıq ənənə halını alıb. Belə ki, Azərbaycan və Türkiyənin “Mustafa Kamal Atatürk”, “Anadolu Qartalı”, “Sarsılmaz Qardaşlıq”, “Qış təlimi-2025” birgə təlimləri xüsusi vurğulanmalıdır. Türkiyə və Azərbaycan hərbçiləri Naxçıvanda da birgə təlim keçirlər. Həmin təlimin adı “Birgə komando təlimi” adlanır. Yeri gəlmişkən, bugünlərdə iki qardaş ölkənin hərbçilərinin Qarsda “Heydər Əliyev-2026” adlı birgə hərbi keçirilib.

Xatırladaq ki, ötən ilin mayında da Azərbaycan Ordusunun hərbi qulluqçuları və aviasiya vasitələri “Anadolu Ankası- 2025” beynəlxalq axtarış-xilasetmə təlimində iştirak etmişdilər.



Mövzu ilə bağlı Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, Azərbaycanın dövlət siyasətinin ən mühüm prioritetlərindən biri ordu quruculuğudur. 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, antiterror tədbirləri zamanı ortaya qoyulan peşəkarlıq və operativlik ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Onun sözlərinə görə, milli təhlükəsizlik strategiyasının ayrılmaz tərkib hissəsini təşkil edən hərbi təhlükəsizliyin möhkəmləndirilməsi milli ordunun maddi-texniki və mənəvi-psixoloji hazırlıq səviyyəsinin yüksəldilməsindən xeyli dərəcədə asılıdır. Son illər bu sahədə həyata keçirilən davamlı islahatlar və məqsədyönlü tədbirlər nəticəsində Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib.

Millət vəkili qeyd edib ki, hazırda dünyada, o cümlədən regionumuzda mürəkkəb proseslər davam edir. Yeni dünya nizamının formalaşdığı bir zamanda Azərbaycan xarici siyasət kursunda dost və müttəfiq ölkələrlə əlaqələri daha da gücləndirməkdədir. Təbii ki, bu sırada qardaş və strateji müttəfiq olan Türkiyə ilə münasibətlər xüsusi yer tutur. “Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Azərbaycan və Türkiyə “Bir millət, iki dövlət” prinsipi ilə dünyaya örnək olan, qardaşlıq və birlikdəlik ruhunu əks etdirən, qədim tarixə, dərin köklərə malik ölkələrdir. Həmçinin Azərbaycan və Türkiyə geosiyasi baxımdan strateji tərəfdaşlar olaraq, regional və qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bu əlaqələr, həmçinin türk dünyası çərçivəsində birliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində bir model kimi çıxış edir”, - deyən deputat əlavə edib ki, ölkələrimizin hərbi sahədəki əməkdaşlığı da hər zaman böyük önəm daşıyıb. Çünki Türkiyə ilə Azərbaycanın hərbi və təhlükəsizlik sahəsindəki əməkdaşlığı bölgənin sabitliyi, təhlükəsizliyi baxımından olduqca əhəmiyyətlidir. Hər iki ölkə müxtəlif beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərir və bu əməkdaşlıq da həm regional, həm də qlobal səviyyədə birgə təhlükəsizlik təşəbbüslərini özündə ehtiva edir. Azərbaycanın öz ərazilərini 30 illik işğaldan azad etməsi prosesində Türkiyənin siyasi dəstəyi də ölkələrimiz arasındakı münasibətlərin möhkəmlənməsinə səbəb olub. Həmçinin, bu baxımdan ölkələrimiz arasında birgə hərbi təlimlərin keçirilməsi, silah tədarükü və müdafiə sənayesi sahəsindəki layihələr mühüm əhəmiyyət kəsb edir.

“Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində Türkiyənin verdiyi dəstək, xüsusilə hərbi təlimlərlə davam edir. İki ölkənin keçirdiyi hərbi təlimlərdə iştirak edən Türkiyə Silahlı Qüvvələri və Azərbaycan Silahlı Qüvvələri regional təhlükəsizliyi təmin etmək üçün güclü təməl yaradıb. Bu təlimlər, həmçinin NATO ilə əməkdaşlıq çərçivəsindəki əlaqələri gücləndirir və qardaş ölkələrimizin beynəlxalq təhlükəsizlik məsələlərindəki həmrəylini daha da möhkəmləndirir. Xüsusilə, Şuşa Bəyannaməsi hərbi sahədə əməkdaşlığı dərinləşdirib. Azərbaycanda müasir ordu quruculuğu işləri davam edir və yeni mərhələdə silahlı qüvvələrimiz Türkiyə modelinə uyğunlaşdırılıb”, - deyə K.Bayramov vurğulayıb.

# Güzəştli ipoteka bazarı böyüyür

## Fond tərəfindən verilmiş ipoteka kreditlərinin məbləği 3,8 milyard manata çatıb

2026-cı ilin birinci rübündə İpoteka və Kredit Zəmanət Fondu tərəfindən 29,9 milyon manat ipoteka krediti verilib. Fondun vəsaiti hesabına müvəkkil banklar tərəfindən 353 ipoteka krediti, o cümlədən, 12,2 milyon manat məbləğində 115 adi ipoteka krediti və 17,7 milyon manat məbləğində 238 güzəştli ipoteka kreditinin verilməsi təmin olunub. Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditlərindən faydalanmasını təmin etmək məqsədilə 1 aprel 2026-cı il tarixinə fond tərəfindən 140,8 milyon manat məbləğində 1497 ipoteka krediti üzrə zəmanət verilib.

Nizamnamə kapitalı 1 milyard 153 milyon manata bərabər olan İpoteka və Kredit Zəmanət Fondu həm biznes, həm də vətəndaşların güzəştli kreditlərə əlçatanlığı üçün mühüm maliyyə mənbəyi rolunu oynayır. Davamlı olaraq nizamnamə kapitalını artıran bu təsisat daha çox ipoteka kreditlərini təklif etməklə, güzəştli şərtlərlə kredit təminatını icra edərək daha çox vətəndaşın güzəştli ipoteka kreditindən faydalanmasına imkan yaradır. Fondun vəsaiti hesabına 2006-cı ildən indiyə qədər verilmiş cəmi ipoteka kreditlərinin məbləği isə 3,8 milyard manata çatıb. Bu, 57 mindən çox ailənin mənzil şəraitinin yaxşılaşmasına imkan verib. Bu dövr ərzində ipoteka kreditlərindən faydalananların 67 faizini gənclər və gənc ailələr təşkil edib, kreditlərin 22 faizə yaxını isə regionların payına düşüb.

Ölkəmizdə ipotekadan daha çox istifadənin təmin edilməsi və əlçatanlığın artırılması məqsədilə dövlət başçısının imzaladığı müvafiq fərmana əsasən, İpoteka və Kredit Zəmanət fondunun nizamnamə kapitalı davamlı şəkildə artırılır ki, bu da hər il Fondun maliyyə portfelinin böyüməsinə səbəb olur. Nəticədə fondun maliyyə təchizatı imkanları daha da genişlənir, ipoteka kreditləri üzrə əlavə təkliflər əsasında əlçatanlıq artır, nəticədə daha çox vətəndaş güzəştli ipoteka kreditindən faydalana bilir.

### “SİMA İmza” ilə...

Bir müddət əvvəl İpoteka və Kredit Zəmanət Fondu tərəfindən 2026-cı il ərzində ipoteka kreditləşməsi prosesinin davam etdirilməsi məqsədilə müvəkkil banklara ipoteka kreditlərinin, o cümlədən güzəştli ipoteka kreditlərinin verilməsi üçün limitlər ayrılıb. Martın əvvəllərindən etibarən müraciətlərin qəbuluna başlanılıb və proses “Elektron ipoteka və kredit zəmanət” sistemi (www.e-gov.az) üzərindən elektron imza vasitələri (SİMA Token (Elektron İmza), SİMA Rəqəmsal, Asan İmza) ilə həyata keçirilir. Müraciətlərin çoxluğu nəzərə alınaraq daha asan qeydiyyat məqsədilə 2026-cı ilin fevral ayından etibarən “SİMA İmza” “Elektron ipoteka və kredit zəmanət” sisteminə inteqrasiya edilib. “SİMA İmza” rəqəmsal imzanın da tətbiq edilməsi vətəndaşlar üçün vaxt və maliyyə itkilərinin qarşısının alınmasına, göstərilən xidmətlərin səmərəliliyinin artırılmasına xidmət edir.

### Kiçik və orta biznes üçün zəmanət subsidiyaları

İpoteka kreditlərinin digər mühüm prioriteti biznesin maliyyə təminatını yaxşılaşdırmaqdır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən yeni maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqları İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) həvalə edilib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırır. Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirilməsi təmin edilib. Sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə zəmanətin və bu kreditlər üzrə hesablanmış faizlərə görə subsidiyalarla təmin edilməsi bu sahədə mühüm dönüş yaradıb.

İndiyə qədər fondun təqdim etdiyi zəmanət hesabına müvəkkil banklar tərəfindən sahibkarlara 680 milyon manatdan çox kredit verilib. Mexanizm çərçivəsində indiyə qədər zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, fond tərəfindən sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərin bir hissəsinə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki illik faiz dərəcəsi 6,8 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min manatdan 5 milyon manatadək təşkil edib.

Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib. Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.



### Fond 50 milyon manat dəyərində istiqraz buraxıb

İpoteka Fondu qiymətli kağızlar bazarında da fəal iştirak edir, öz istiqrazlarını bazara emissiya edir. Dövlət zəmanəti verən və dövlət zəmanəti üzrə öhdəliklərin icrası qismində Maliyyə Nazirliyi çıxış edir. Zamin tərəfindən dövlət zəmanəti üzrə öhdəliklər ipoteka istiqrazlarının emissiya şərtlərində nəzərdə tutulmuş nominal dəyər və faiz ödənişləri üzrə öhdəliklər təşkilat tərəfindən yerinə yetirilir. İpoteka istiqrazları üzrə öhdəliklərin icrası tam başa çatdıqdan sonra zəmanətə xitam verilir. Bu siyasət istiqraz bazarında rəqabətliliyin artmasında mühüm rol oynamaqla, səhm bazarına da müsbət təsir göstərir.

Həmin siyasətə uyğun olaraq, bir neçə gün əvvəl fond tərəfindən dəyəri 50 milyon manat olan istiqrazlar qiymətli kağızlar bazarına yerləşdirilib. Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsi üzrə keçirilən hərracda bir istiqrazın nominal dəyəri 1000 manat, faiz dərəcəsi 3,25 faiz təşkil edib.

### İpoteka mexanizmi təkmilləşdirilir

Ölkədə ipotekaya əlçatanlığın təmin edilməsi məqsədilə ötən ilin sonlarında dövlət başçısının müvafiq sərəncamı ilə təsdiq olunmuş “İpoteka haqqında” qanuna əsasən, ipoteka mexanizmində bir sıra dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun mübadiləsi, müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunur. İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq. Həmçinin ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə, dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödəniləcək.

*E.CƏFƏRLİ*

# Yeni neft qiymətləri və hasilat proqnozları

## ABŞ-ın Enerji İnformasiya Administrasiyası ucuz qiymət anonsunu verib

ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya Administrasiyası (EIA) qlobal neft tədarükçülərinin 2026-cı və 2027-ci ildə yeni hasilat proqnozlarını açıqlayıb. Təşkilatın yaydığı məlumata əsasən, qlobal bazarın böyük bir qismini yanacaqla təmin edən Neft İxrac Edən Ölkələr Təşkilatı - “OPEC”in 2026-cı il üçün gündəlik xam neft hasilatı 33,91 milyon barel olacaq. Gələn il isə kartel ölkələri üzrə gündəlik ortalama neft hasilatı 34,17 milyon barel həcmində proqnozlaşdırılır. Qlobal bazarın təxminən 40-42 faizini neftlə təmin edən “OPEC+” ölkələrinin neft və digər maye karbohidrogenlərin hasilatı isə 2026-cı ildə gündəlik 41,73 milyon barel, 2027-ci ildə 45 milyon barel gözlənilir.

EIA-nın “Qısamüddətli enerji perspektivi” adlı aprel hesabatında qeyd edilir ki, Azərbaycanda 2026-cı ildə təqribən 530 min, 2027-ci il üçün orta gündəlik neft hasilatı 540 min barel səviyyəsində proqnozlaşdırılır. 2027-ci il üçün neft hasilatı proqnozu cüzi artacaq. Belə ki, gələn ilin birinci rübündə ölkəmizdə orta gündəlik neft hasilatının 550 min barel olacağı gözlənilir. 2027-ci ilin ikinci rübündə Azərbaycanda gündəlik neft hasilatı 540 min barel təşkil edəcək. Gələn ilin üçüncü və dördüncü rüblərində isə Azərbaycanda orta gündəlik neft hasilatının 530 min barel olacağı proqnozlaşdırılır.

ABŞ-ın Enerji İnformasiya Administrasiyası gələn ilin neft qiymətləri barədə ehtimallarını da açıqlayıb. Məlumata görə, bu il “Brent” markalı xam neftin bir barelinin orta qiyməti 78,84 dollar olacaq, “Light” markalı xam neftin orta qiymətinin isə cari ildə 73,61 dollar gözlənilir. 2027-ci ildə də “Brent”in orta qiymətinin 64,47 dollar, “Light”ın qiymətinin 60,81 dollar təşkil edəcəyi proqnozlaşdırılır.

### “OPEC+”un Azərbaycan üzrə hasilat kvotası sabitdir

Xatırladaq ki, Azərbaycanın gündəlik neft hasilatı əsas etibarilə “OPEC+” üzvlərinin birgə qərarına əsasən müəyyənləşir. Bu təşkilatın qərarına uyğun olaraq, Azərbaycanın gündəlik neft hasilatının 2026-cı il üzrə müəyyən edilmiş kvotası təxminən 550 min barel təşkil edir. Bu, ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilə bilər. Ümumiyyətlə, respublikamız istər “OPEC”in, istərsə də “OPEC+”un tədbirlərində qəbul edilən qərarlara həmişə hörmətlə yanaşıb və rəsmi Bakı üçün kvotanın müəyyən edilməsi barədə irəli sürülmüş təklifləri yerinə yetirib.

“OPEC+” enerji ittifaqı adətən qlobal enerji bazarlarında baş verən fraqmentasiyalara uyğun qərarlar qəbul edir, bazarda nizamlayıcı rol oynamaq üçün yanacağın tədarük kvotalarını müəyyənləşdirir. Kartel ölkələrinin başlıca prinsipi sabit və sərfedici qiymət portfelinin dayanıqlılığının qorunmasıdır. Alyans üzvləri gündəlik qlobal neft tədarükünün (104 milyon barel) təxminən 42 faizini təmin edir. Tədarükçü ölkələr arasında ədalətli yanaşma neftin qiymətlərinin orta bazar çərçivəsində 80-100 dollar arasında qalmasıdır. “OPEC+”un siyasətində neftin yüksək olması da arzuolunan deyil, tədarükçülər qeyd edilən qiymət çərçivəsini münasib hesab edərək bazara tələb olunan kvotaya uyğun neft çıxarır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.




“OPEC+” ölkələri neftin qiymətləri ucuzlaşanda, hazırkı ssenariyə əsasən, yanacağın qiymətinin orta satışı 70 dollardan aşağı düşməsi tendensiyası artanda hasilatı azaltmaq qərarı verir. Son 2 ildə dünya bazarında neftin orta satış qiyməti 80-90 dollar civarında dövr etdiyindən “OPEC+” ölkələri neftin hasilatını artırmaq yox, nisbi azaltmaq kursu üzrə hərəkət edib. Yaxın Şərqdə baş verən son hadisələr və Hörmüz boğazının bağlanmasından sonra aprelin əvvəlində hasilatı 200 min barelə yaxın artıran “OPEC+” ölkələri bununla da qiymətlərin sabitliyinin təmin edilməsi üçün mühüm addımlardan birini atdı. Qarşıdakı dövrdə neftin ucuzlaşması baş verəcəyi təqdirdə alyans üzvləri hasilatı və nəqli yenidən azaldacaq.

### İkinci neft bumu ölkəmizin neft nəqlini artırmasına səbəb olacaq

ABŞ-ın Enerji İnformasiya Administrasiyasının Azərbaycanla bağlı hasilat proqnozları faktiki olaraq “OPEC+”un ölkəmiz üçün müəyyənləşən gündəlik neft hasilatı kvotasına uyğundur. Yəni Azərbaycan gündəlik neft hasilatı kvotası 540- 550 min barel təşkil edir ki, bu da növbəti ildə də hasilatın sabit qalacağına işarə edir. Bu, o deməkdir ki, cari ilin növbəti aylarında, yaxud növbəti ildə dünya neft bazarında kəskin neft bolluğu şəraitində “OPEC+” aylıq nəqli azaltdığı halda, bu qərarın Azərbaycana ciddi təsirləri olmayacaq. Ölkəmiz ənənəvi hasilat həcmləri üzrə dünya bazarına neft satışını davam etdirəcək.

Məsələ ondadır ki, Azərbaycanda son 5-6 ildə aşağı düşən neft hasilatı yenidən artmağa başlayıb. SOCAR və bp Xəzərdə neft və qaz hasilatını artırmaqla bağlı yeni strateji proqram icra edir. bp və tərəfdaşları “Azəri Mərkəzi Şərqi” platformasından və digər sahələrdən hasilatı optimallaşdırmaq üçün dərin kəşfiyyat və hasilat quyularının qazılmasını davam etdirir. Eləcə də “Azəri-Çıraq-Günəşli” (AÇG) yatağında yeni blokların, “Qarabağ” yatağının karbohidrogen ehtiyatlarının hasilata cəlb edilməsi üçün yeni texnoloji imkanlar səfərbər olunub. İlkin hesablamalara görə, təkcə “Qarabağ” yatağında geoloji neft ehtiyatları 60 milyon tondan artıqdır. Bunun da 21 milyon ton nefti və 13 milyard kubmetr qazı çıxarıla bilən hesab olunur. “Qarabağ” yatağı Bakıdan 120 kilometr şərqdə, “Günəşli” yatağından 20-25 kilometr aralıda, suyun 150-200 metr dərinliyində yerləşir. Bu yatağı mövcud infrastrukturla birləşdirəcək boru kəmərlərinin tikintisi yeni texnologiya ilə aparılacaq. Yəni tikinti dənizdə borudüzən gəmidən istifadə edilməklə deyil, quruda həyata keçiriləcək. Habelə digər perspektivli yataqlardakı karbohidrogen resurslarının əhəmiyyətli hissəsi neftdən ibarətdir ki, bu bloklarda da hasilat üçün işlərə başlanılıb. Nəticədə, Azərbaycanın planlaşdırdığı ikinci neft bumu strategiyasının reallaşması sayəsində ölkəmizin qlobal enerji təchizatçısı kimi uzunmüddətli mövqeyi daha da möhkəmlənmiş olacaq. Bu isə 2027-ci ildə olmasa da, növbəti illərdə Azərbaycanda neft hasilatının artması nəticəsində qlobal bazara daha çox yanacaq nəql etməsini labüdləşdirəcək. Bu baxımdan, “OPEC+”un Azərbaycanın neft nəqli kvotasını artıracağı, habelə beynəlxalq enerji agentliklərinin ölkəmizlə bağlı proqnozları yüksəldəcəyi istisna olunmur.

*E.CƏFƏRLİ*

# Hörmüz “düyünü”?



## Boğaz uğrunda mübarizə kəskinləşir - Körfəz ölkələri “ofsayd”a düşüb?

ABŞ ilə İran arasında əldə olunan razılaşmanın ən əsas müddəalarından biri Hörmüz boğazının tam, dərhal və təhlükəsiz şəkildə açılması şərtidir. Qeyd edək ki, müharibənin davam etdiyi 38 gün ərzində İran Hörmüz boğazını bağlamışdı. Bu isə nəticə etibarı ilə neft və neft məhsullarının qiymətinin artmasına səbəb olmuşdu.

**6 km-lik keçid üçün...**

Qeyd edək ki, Hörmüz boğazı dünyanın ən mühüm strateji dəniz keçidlərindən biridir. Bu boğaz Fars körfəzi ilə Ərəbistan dənizi arasında yerləşir və şimaldan İran, cənubdan isə Oman və BƏƏ ilə əhatə olunur. Ən dar hissəsinin eni təxminən 33 kilometr olsa da, gəmiçilik üçün istifadə edilən əsas zolaqlar daha dardır - təxminən 3 kilometr enində iki zolaq.

Hörmüz boğazı dünya iqtisadiyyatı üçün həyati əhəmiyyət daşıyır. Dünyada ixrac olunan neftin böyük hissəsi, təxminən 25-i faiz məhz bu keçiddən daşınır. Gündəlik təxminən 20 milyon barel neftin buradan keçməsi onu qlobal enerji təhlükəsizliyinin əsas nöqtəsinə çevirir. Xüsusilə Səudiyyə Ərəbistanı, İraq, Küveyt, BƏƏ və Qətər kimi ölkələr üçün bu boğaz əsas ixrac yoludur.

Boğazın siyasi və hərbi əhəmiyyəti də böyükdür. İran burada mühüm nəzarət imkanlarına malikdir və müxtəlif dövrlərdə bu keçidi bağlamaqla hədələyib. Təsadüfi deyil ki, Yaxın Şərq müharibəsi dövründə də bu yaşandı. Bu isə dünya bazarında neft qiymətlərinə ciddi təsir göstərir. ABŞ və digər dövlətlər bölgədə hərbi mövcudluq saxlayaraq gəmiçiliyin təhlükəsizliyini qorumağa çalışır. ABŞ-ın Körfəz ölkələrindəki hərbi bazalarının əsas xidmət sahəsi də məhz keçidlə bağlıdır.

Tarixən də bu ərazi mühüm ticarət və münaqişə zonası olub. Xüsusilə İran-İraq müharibəsi zamanı burada genişmiqyaslı tanker hücumları baş verib. Bütün bunlara görə Hörmüz boğazı həm iqtisadi, həm də geosiyasi baxımdan dünyanın ən həssas və vacib nöqtələrindən biri hesab olunur.

**Bütün planların ilk şərti...**

Qeyd edək ki, müharibə dövründə vasitəçilər tərəfindən irəli sürülən danışıqlar prosesi üçün də əsas mövzulardan biri məhz Hörmüzlə bağlı idi. İstər ABŞ, istərsə də İran boğazda öz maraqlarını qorumaq üçün bu müddəanı özlərinin sülh planına daxil etmişdilər. Xüsusilə, ABŞ boğazın təhlükəsizliyinin təmini istiqamətində təzyiqlər göstərirdi. İran isə bunun müqabilində geri çəkilməyərək Hörmüzü güzəştə getmək fikrindən uzaq idi. Hazırkı danışıqlar prosesində də ön plana çıxan amil kimi Hörmüz boğazı qeyd olunur. Amma yenə də fikirlər haçalanır. ABŞ qeyd-şərtsiz açılım planında israr edir, İran isə ən pis halda boğazdan keçən gəmilərə rüsum tətbiqi fikrində qəti mövqe nümayiş etdirir. Səbəb aydındır - Hörmüz boğazından keçən gəmilərdən rüsum alınacağı təqdirdə ölkə illik böyük gəlir əldə edəcək. Qeyd edək ki, ötən il bu strateji su yolundan təxminən 32 min gəmi keçib. Hər bir gəmidən 2 milyon dollar rüsum alınacağı təqdirdə, bu, İrana il ərzində 64 milyard dollar əlavə gəlir qazandıracaq. Bu baxımdan da Tehran ABŞ-la apardığı danışıqlarda irəli sürdüyü 10 maddəlik planın tərkib hissəsi kimi rüsum tətbiqi modelini irəli sürür.

**Boğaz açıldı - amma 2 həftəlik...**

“The Times of Israel” qəzeti adı çəkilməyən yüksək vəzifəli İsrail rəsmisinə istinadən xəbər verir ki, İran qeyd-şərtsiz Hörmüz boğazını açmağa razılaşıb. Rəsmi şəxs iddia edib ki, “İran müharibənin daimi dayandırılması, kompensasiya ödənişləri, sərt sanksiyaların ləğvi və digər tələblərinin heç biri yerinə yetirilməməsinə baxmayaraq, Hörmüz boğazını açır”.

İranın xarici işlər naziri Abbas Əraqçi isə sosial mediada Hörmüz boğazından təhlükəsiz keçidin 2 həftə ərzində mümkün olacağını bildirib. O, qeyd edib ki, bu, İran Silahlı Qüvvələri ilə koordinasiya yolu ilə və texniki məhdudiyyətlər nəzərə alınmaqla həyata keçiriləcək. ABŞ-ın Hörmüz boğazına nəzarəti Tehrana buraxmağa razılıq verdiyi bildirilib. Xatırladaq ki, Abbas Əraqçi daha əvvəl İranın dost hesab etdiyi ölkələrə məxsus gəmilərin Hörmüz boğazından keçməsinə icazə verdiyini açıqlamışdı. O qeyd etmişdi ki, xüsusən də Rusiya, Çin, İraq, Hindistan və Pakistan bu boğazdan istifadə edə bilər. Təsadüfi deyildi ki, Çin Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasının Hörmüz boğazı ilə bağlı qətnamə layihəsinə veto qoymuşdu. Bu isə ABŞ və İsrail tərəfindən güc tətbiqinə icazə verə və ya icazəsiz hücumları qanuniləşdirə biləcək qətnamənin qəbulunu dayandırmışdı. Qeyd edək ki, Tehran əvvəllər Hörmüz boğazını humanitar yardım və zəruri mallar daşıyan gəmilər üçün açmışdı.

**Yeni kanal mümkün deyilsə...**

Dünyanın əsas neft ixracı xəttinin Hörmüzdən asılılığını ortadan qaldırmaq üçün bir neçə variant belə təklif edilib. Məsələn, ABŞ İranı görmədən Ərəbistan dənizinə keçmək üçün yeni bir kanal tikməyi belə təklif etmişdi. Yeni kanalın 2 min metr uzunluğunu və bir neçə dövlətdən keçməsi nəzərə alınaraq mümkünsüzlüyü irəli sürülmüşdü. Mütəxəssislər bildirmişdilər ki, kanalın dərinliyini təmin etmək mümkün olmayacaq - relyefin qumlaq olması səbəbindən aşınmalar belə baş verə bilər.

Bu isə İran üçün mühüm üstünlükdür. Dünya neft ixracının 25 faizinin keçidinə nəzarət kimi bir alət Tehrana bölgədə əlavə dividend gətirir. Bu səbəbdən də İran boğazdan istifadə üçün rüsum tələb edir. Siyasi şəhçilər Pakistanda aprelin 10-da baş tutacaq danışıqlarda İran ilə ABŞ arasında Hörmüz üzərindən razılaşmanın mümkünlüyünü irəli sürürlər. ABŞ-ın “patronajlığı” altında daşınan yüklər və ya neft məhsulları istisna olmaqla rüsumun tətbiqi mümkün ola bilər. Bu Vaşinqtonun da maraqlarına cavab verir. Həm boğaz üzərindən apardığı ticarət yenə də davam edəcək, daha təhlükəsiz bir şərait yaranacaq, həm də digər Körfəz ölkələri üzərində siyasi təzyiq imkanı qazanacaq. Bu səbəbdən də boğazla bağlı müzakirələrə Körfəz ölkələrinin də daxil olması mümkünləşə bilər.

**Starmer Hörmüz boğazı ilə bağlı vəziyyəti müzakirə etməyə gedir**

Bu arada Böyük Britaniyanın Baş naziri Kir Starmerin ABŞ-İran atəşkəsindən sonra Hörmüz boğazının daimi açılmasını təmin etmək üçün aprelin 9-da regional liderlərlə danışıqlar aparmaq üçün Körfəz ölkələrinə səfər edəcəyi açıqlanıb. Starmer bildirib ki, əldə edilən atəşkəsi alqışlayıram: “Bu, regiona və dünyaya müəyyən rahatlıq gətirəcək”.

Baş nazir qeyd edib: “Tərəfdaşlarımızla birlikdə bu atəşkəsi dəstəkləmək və qorumaq, onu davamlı bir razılaşmaya çevirmək və Hörmüz boğazını yenidən açmaq üçün əlimizdən gələni etməliyik”.

Kir Starmer münaqişənin davamlı həllinə nail olmaq, Böyük Britaniyanı və qlobal iqtisadiyyatları gələcək təhdidlərdən qorumaq üçün atəşkəsi dəstəkləmək və həyata keçirmək məqsədilə diplomatik səyləri müzakirə edəcək.

**Boğazda sıxlıq yaranıb...**

Hazırda isə Hörmüz müvəqqəti də olsa, açılıb - amma bir aydan artıqdır davam edən münaqişə səbəbindən gözləyən gəmilər boğazda dramatik vəziyyət yaradıb. “Bloomberg” agentliyinin məlumatına görə, ABŞ və İran arasında əldə olunmuş müvəqqəti atəşkəs razılaşmasından sonra 800-dən çox ticarət gəmisi boğazdan keçmək üçün çıxış yolu axtarıb. “Kpler” analitik mərkəzinin məlumatına görə, körfəzdə 426 neft və yanacaq tankeri, 34 mayeləşdirilmiş neft qazı (LPG) və 19 mayeləşdirilmiş təbii qaz (LNG) tankeri hərəkətsiz qalıb. Digər gəmilər isə konteyner və quru yüklər daşıyıb. Paralel olaraq gəmilərdə qalan təxminən 20 min dənizçinin də ərzaq ehtiyatları azalıb. Qeyd olunur ki, bu 800 gəmi yaxın 48 saat ərzində hərəkətə başlaya bilməsə, dünya bazarında neftin qiyməti rekord həddə - 120-130 dollara qədər yüksələ bilər.

**Hörmüzün gəlirləri bərpaya yönələcək?**

Hörmüz boğazından əldə olunan gəlirlərin İranın bərpasına yönəldiləcəyi də vurğulanıb. Belə ki, Fars körfəzindəki münaqişə zamanı İrana dəyən zərər maraqlı maliyyə qurumlarının iştirakı ilə yaradılacaq xüsusi investisiya fondundan ödəniləcək. Məlumatı “Fars” xəbər agentliyi yayıb. Tehranın təqdim etdiyi atəşkəs şərtlərinin tam mətni ilə tanış olan mənbəyə görə, “İranın itkilərinə görə kompensasiya investisiya və maliyyə fondunun yaradılması yolu ilə təmin ediləcək”. Onun strukturu və ya idarəçiliyi barədə hələlik heç bir məlumat yoxdur. Həmçinin bildirilir ki, İranın Hörmüz boğazından keçən gəmilər üçün toplamaq niyyətində olduğu vergilərin bir hissəsi münaqişə zamanı dağıdılmış obyektlərin bərpası proqramları üçün istifadə olunacaq. Agentlik qeyd edir ki, İranın atəşkəs şərtlərində İrana Omanla birlikdə Hörmüz boğazından keçən gəmilərə rüsum almaq hüququ veriləcəyi nəzərdə tutulur.

*SADİQ*

# 38 gün sonra...



## Yaxın Şərqdə atəşkəs elan olundu

38 gün sonra Yaxın Şərqdə silahlar susub. ABŞ ilə İran arasında danışıqlara vasitəçilik edən Pakistan və digər dövlətlərin apardığı səylər bəhrəsini verdi - tərəflər 2 həftəlik atəşkəs barədə razılığa gəliblər. Xarici medianın yaydığı məlumata görə, Donald Tramp Pakistanla müzakirələrdən sonra atəşkəsi elan edib. Pakistan ABŞ-dan İrana dağıdıcı qüvvələr göndərməməsini istəyib - ABŞ Prezdenti isə bununla razılaşıb. Donald Tramp "Truth" sosial media platformasında yazıb ki, İrana ultimatumu 2 həftə uzatmağa və həmin müddət üçün atəşkəsə razılaşıb. O, bu qərarı Pakistanın Baş naziri Şahbaz Şərif və Ordu rəisi Asim Munir ilə danışıqlardan sonra verib. Tramp qeyd edib ki, ABŞ artıq regiondakı məqsədlərinə çatıb.

**Aprelin 10-da İslamabadda...**

Beləliklə, aprelin 10-da Pakistanın paytaxtı İslamabadda başlaması gözlənilən ABŞ və İran rəsmiləri arasında danışıqlar birbaşa aparılacaq. CNN-in ABŞ administrasiyasının rəsmilərinə istinadən yaydığı məlumata görə, ABŞ vitse-prezidenti J.D.Vens, prezidentin xüsusi nümayəndəsi Stiv Vitkoff və Cared Kuşnerin İslamabadda keçirilməsi planlaşdırılan İranla sülh danışıqlarında iştirak etməsi gözlənilir. Məlumata görə, İran tərəfini parlamentin spikeri Məhəmməd Baqir Qalibafın başçılıq edəcəyi nümayəndə heyəti təmsil edəcək. Xarici media İranın xarici işlər naziri Abbas Əraqçının da görüşdə iştirak etmə ehtimalını istisna etməyib. ISNA agentliyinin yaydığı məlumata görə, Qalibafın bu missiyaya rəhbər təyin olunması Tehranın danışıqlara verdiyi yüksək önəmin göstəricisidir, çünki o, ölkənin həm hərbi, həm də siyasi elitasında ən nüfuzlu simalardan biri sayılır.

**ABŞ-da dəstək...**

ABŞ-da bu razılaşmaya münasibət yekcins deyil - dövlət adminstrasiyası bu razılaşmanı dəstəkləyir və bunu uğur adlandırır. Ağ Evin sözçüsü Kerolayn Livitt ABŞ və İran arasında əldə olunan 2 həftəlik atəşkəs razılaşmasını şərh edərək bunu prezident Donald Trampın uğuru kimi qiymətləndirib. O, sosial şəbəkədə yazıb ki, bu nəticə Trampın rəhbərliyi və ABŞ hərbçilərinin fəaliyyəti sayəsində əldə olunub: "Bu, prezident Tramp və bizim inanılmaz hərbçilərimizin qazandığı ABŞ qələbəsidir".

Livitt bildirib ki, əməliyyatın əvvəlində Tramp onun 4-6 həftə davam edəcəyini gözləsə də, ABŞ qüvvələri əsas hərbi məqsədləri cəmi 38 günə yerinə yetirib. Onun sözlərinə görə, bu uğur ABŞ-a danışıqlarda üstünlük qazandırıb və nəticədə diplomatik həll yoluna şərait yaradıb.

Amma bu razılaşmanı daha fərqli istiqamətdən dəyərləndirənlər də var - ABŞ Dövlət Departamentinin keçmiş sözçüsü və MKİ-nin (CIA) sabiq əməkdaşı Ned Prays, Tramp administrasiyasının İranla bağladığı yeni müqaviləni və bölgədəki hərbi nəticələri "strateji uğursuzluq" adlandırıb. Prays özünün "X" hesabında paylaşdığı bəyanatda ABŞ-ın böyük itkilər verdiyini, lakin İranın daha əlverişli mövqedə qaldığını vurğulayıb. Ned Praysın fikrincə, artıq müharibənin sonu görünür və nəticələr Vaşinqton üçün ürəkaçan deyil. O qeyd edir ki, İran hələ də Hörmüz boğazına nəzarət edir və buna paralel olaraq ABŞ-ın İran neftinə tətbiq etdiyi sanksiyalar faktiki olaraq ləğv edilib. Prays vurğulayıb ki, ABŞ bu müddət ərzində nəhəng maliyyə vəsaitləri xərcləyib, ən əsası isə insan həyatlarını (amerikalı hərbçiləri) və beynəlxalq nüfuzunu itirib. Bütün bunların müqabilində isə Tehran rejimi strateji baxımdan daha da güclənib.

**İsrail dövləti razıdır, müxalifət isə...**

İsrail tərəfindən də eyni vəziyyət hökm sürür. Rəsmi Təl-Əviv ABŞ prezidentinin İrana hücumları dayandırması qərarını dəstəkləyir. Baş nazir Benyamin Netanyahunun yaydığı açıqlamada bildirilir ki, İsrail ABŞ-ın "İran təhdidini" neytrallaşdırmaq səylərini dəstəkləyir. ABŞ İranla danışıqlarda İsrailin ortaq məqsədlərinə sadiq olduğunu bildirib.

İsrail müxalifətinin lideri Yair Lapid isə ABŞ, İran və İsrail arasında əldə olunmuş 2 həftəlik müvəqqəti atəşkəs razılaşmasına görə Baş nazir Benyamin Netanyahunu sərt şəkildə tənqid edib. Lapid özünün "X" (keçmiş Twitter) hesabında bu razılaşmanı İsrail dövləti üçün görünməmiş bir rüsvayçılıq kimi qiymətləndirib. "Tariximiz boyu belə bir siyasi fəlakət baş verməmişdi. Milli təhlükəsizliyimizin mahiyyətinə toxunan qərarlar qəbul edilərkən İsrail hətta danışıqlar masasında belə oturmayıb", - deyə müxalifət lideri vurğulayıb.

Lapid iddia edir ki, Netanyahu hökuməti ABŞ-ın təzyiqləri qarşısında geri çəkilərək İranın bölgədəki hərbi gücünü bərpa etməsinə şərait yaradıb. Müxalifət liderinin bu kəskin bəyanatı İsrail daxilində onsuz da gərgin olan siyasi mühiti daha da alovlandırıb.

**Livana şamil olunmadı...**

Qeyd edək ki, əldə olunan razılaşma Livana şamil edilmir - bu faktı həm Pakistanın Baş naziri Şahbaz Şərif, həm də İsrail tərəfi təsdiqləyib. İraqdakı İslam Müqaviməti daxilindəki militant şiə qruplarıı isə həm İraq daxilində, həm də xaricində ABŞ və İsrail hədəflərinə qarşı hərbi əməliyyatlarının 2 həftəlik dayandırıldığını elan ediblər. Məlumat radikalların "Al Arabiya" telekanalında yayımlanan bəyanatında əksini tapıb: "Biz ölkə daxilində və xaricində hərbi əməliyyatların 2 həftəlik dayandırıldığını elan edirik".

**Müzakirə predmetləri açıqlanmır**

10 apreldə müzakirə olunacaq məsələlərə gəldikdə isə, tərəflər bu haqda dolğun məlumat yaymayıblar - amma bəzi açıqlamalar nəticəsində müəyyən rəylər formalaşır. Belə ki, ABŞ Prezidenti Donald Tramp AFP agentliyinə verdiyi eksklüziv müsahibədə İranla uzunmüddətli həlli nəzərdə tutan 15 bəndlik yeni bir sazişin mövcud olduğunu və bu bəndlərin əksəriyyətinin artıq razılaşdırıldığını bəyan edib. Tramp aprelin 8-də verdiyi açıqlamada "Bizim 15 bəndlik sazişimiz var, onların çoxu artıq razılaşdırılıb... Baxaq görək, işi sona çatdıra biləcəyikmi", - deyə bildirib.

Diplomatik mənbələrin sızdırdığı məlumata görə, razılaşdırılmış bəndlərə Hörmüz boğazının tam açılması, neft ixracına qismən icazə verilməsi və müvəqqəti atəşkəsin müddətinin uzadılması kimi strateji məsələlər daxildir.

Nəticə haqda tam ümidverici amillərlə danışılmamasına səbəblərdən biri isə İranın hələ də raket proqramının məhdudlaşdırılması və nüvə obyektlərinə beynəlxalq nəzarətin dərəcəsi ilə bağlı məsələlərə razı olmamasıdır. Tehran tərəfi bu barədə susur - beynəlxalq media yazır ki, İran bu 15 maddəlik planı imzalayacağı təqdirdə nüvə müharibəsi riski də aradan qaldırılacaq. Yayılan məlumatda deyilir ki, atəşkəslə bağlı Vaşinqton və İsrail arasındakı ortaq mövqe nüvə materialları və raket proqramı da daxil olmaqla irəli sürülən tələblərin yerinə yetirilməsinə fokuslanıb. Bildirilir ki, ABŞ xüsusən də Tehrandan "bütün nüvə materiallarını ölkədən çıxarmağı", uranın zənginləşdirilməsini dayandırmağı və "ballistik raketlər və digər təhlükələri aradan qaldırmağı" tələb edəcəyinit bildirir.

**Qələbə, yoxsa "taym-aut"?**

Qərb politoloqları isə bu razılaşmanı "təmkinin qalib gələcəyi uzunmüddətli danışıqlar prosesinin ilkin addımı" adlandırırlar. Vurğulanır ki, mənzərə ilkin halda Tramp üçün qismən siyasi qələbə kimi görünür - amma hər şey danışıqların mahiyyətindən, razılaşmanın müddəalarından asılı olacaq. Çünki atəşkəs daimi həll yolu deyil, müvəqqəti bir fasilədir - təsadüfi deyil ki, ABŞ prezidenti Donald Tramp dünən Britaniyanın Sky News televiziya kanalına verdiyi müsahibədə Vaşinqton üçün məqbul bir razılaşma əldə edilməyəcəyi təqdirdə İrana qarşı hərbi əməliyyatlara qayıtmağa hazır olduğunu dilə gətirib. "Biz buna çox asanlıqla qayıdacağıq", - o deyib.

Siyasi təhlilçilər iddia edirlər ki, razılaşma həm də Trampa xoşagəlməz bir seçimdən qaçmağa kömək etdi - qəti eskalasiyadan. Təsadüfi deyildi ki, o, "bütün bir sivilizasiya bu gecə məhv olacaq" deyə bir fikir ifadə etmişdi.

Məsələyə münasibət bildirən siyasi şərhçilər məsələyə yalnız ABŞ-ın irəli sürdüyü plan üzərindən baxılmasını səthi sayır - İranın tələblərinin hansının yerinə yetiriləcəyi də böyük maraq doğurur. Bu plana Amerika qoşunlarının regiondan çıxarılması, İrana qarşı sanksiyaların ləğvi, müharibə ziyanına görə kompensasiya və Hörmüz boğazına nəzarətin saxlanılması daxildir. Trampın bu şərtlərdən hər hansı birinə razılaşacağını təsəvvür etmək çətin olsa da, bu planın tam istisnası qarşıdakı 2 həftəlik danışıqlar prosesinin də hər hansı bir uğur nəticə vəd etmədiyini ortaya qoya bilər.

**Beynəlxalq aləm alqışlayır**

Danışıqlar prosesinin başlanması üçün atəşkəsin elan edilməsinə razılığın verilməsi beynəlxalq aləm tərəfindən də dəstəklənib. Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Amerika Birləşmiş Ştatları və İran İslam Respublikası arasında elan olunmuş atəşkəsi alqışlayıb. Bu barədə Azərbaycan XİN-in bəyanatında qeyd olunub. Bildirilib ki, Azərbaycan Xarici İşlər Nazirliyi atəşkəsin əldə olunmasında vasitəçilik edən bütün tərəflərin səylərini yüksək qiymətləndirir: "Bu atəşkəsin regionda gərginliyin azaldılmasına, eləcə də davamlı sülh və sabitliyin bərqərar olmasına töhfə verəcəyinə ümidvarıq. Tərəfləri mövcud məsələlərin həlli istiqamətində və qarşılıqlı etimadın yaradılmasına yönəlmiş məhsuldar dialoqa çağırırıq. Azərbaycan hər zaman regionda davamlı sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə hazırdır", - bəyanatda vurğulanıb.

Türkiyə Xarici İşlər Nazirliyi də bu qərarı alqışlayıb və onun tam şəkildə yerinə yetirilməli olduğunu vurğulayıb. "Regiondakı müharibə kontekstində elan edilən müvəqqəti atəşkəsi alqışlayırıq. Müvəqqəti atəşkəsin tam şəkildə tətbiq edilməli olduğunu vurğulayırıq və ümid edirik ki, bütün tərəflər əldə edilən razılaşmaya əməl edəcəklər. Davamlı sülhə gedən yol yalnız dialoq, diplomatiya və qarşılıqlı etimad yolu ilə mümkündür", - deyə Türkiyə Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilib.

Nazirlik qeyd edib ki, Türkiyə ABŞ və İran arasında İslamabadda keçiriləcək danışıqların uğurla başa çatmasını təmin etmək üçün bütün mümkün dəstəyi göstərməyə davam edəcək. Bəyanatda deyilir: "Qardaş ölkəmiz Pakistanı bu prosesdə oynadığı rola görə təbrik edirik və sülhü təşviq edən bütün təşəbbüslərin davam etməsini arzulayırıq".

Qətər dövləti də ABŞ və İran arasında atəşkəs razılaşmasını alqışlayıb. Qətərin Xarici İşlər Nazirliyi bunu gərginliyin azaldılması istiqamətində ilk addım kimi qiymətləndirib.

Bu razılaşma Vatikan tərəfindən də müsbət qarşılanıb. Papa XIV Leo ABŞ və İran arasında atəşkəsi alqışladığını bəyan edib. Papa qeyd edib ki, müharibə yalnız danışıqlar yolu ilə başa çata bilər. XIV Leo ABŞ və İran tərəfindən elan edilən atəşkəsi "ümid əlaməti" kimi gördüyünü açıqlayıb.

Ermənistanın baş naziri Nikol Paşinyan rəsmi İrəvanın ABŞ və İranın bütün hərbi əməliyyatları dayandırmaq barədə vacib qərarını alqışladığını bildirib. "Ermənistan ABŞ və İranın bütün hərbi əməliyyatları dayandırmaq barədə vacib qərarını alqışlayır. Biz həmçinin Pakistanın vasitəçilik səylərini yüksək qiymətləndiririk və qəti şəkildə inanırıq ki, bütün həll olunmamış məsələləri həll etmək və Yaxın Şərqdə sülhü qorumaq üçün diplomatiya üstünlük təşkil etməlidir", - Paşinyan "X" dakı paylaşımında bildirib.

Çin də Yaxın Şərqdə atəşkəsi dəstəklədiyini bəyan edib. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Ninq bildirib ki, Pekin həmişə mübahisələrin siyasi və diplomatik yollarla həllini müdafiə edib. "İlk növbədə, Çin müvafiq tərəflərin işgüzar razılaşmalara çatdıqlarını elan etməsini alqışlayır. Biz Pakistan və digər ölkələrin həyata keçirdiyi vasitəçilik səylərini dəstəkləyirik. Çin həmişə hərbi əməliyyatların erkən dayandırılmasını və mübahisələrin siyasi və diplomatik yollarla həll edilməsini müdafiə edib", - deyə sözçü qeyd edib.

Diplomat vurğulayıb ki, Çin Yaxın Şərqdə və Fars körfəzi bölgəsində davamlı sülhün əldə edilməsinə töhfə verməyə davam edəcək.

Avropa Komissiyasının prezidenti Ursula Fon der Leyen razılaşmanı alqışlayaraq, onun "çox ehtiyac duyulan deeskalasiya gətirdiyini" söyləyib. Avropa İttifaqının xarici siyasət idarəsinin rəhbəri Kaya Kallas isə "X"da bildirib ki, İran və ABŞ arasında atəşkəs razılaşması uçurumdan bir addım geri çəkilmədir.

*Pərviz SADAYOĞLU*

# Xarici təsirlərə nəzarət gücləndirilir

## Gürcüstanda “Qrantlar haqqında” qanuna düzəliş edilməsi yenidən gündəmə gəlib

Son illərdə Gürcüstan parlamentində qəbul olunan bir sıra qanunlar cəmiyyətdə geniş müzakirələrə yol açıb. “Qrantlar haqqında” qanun da bu sırada yer alır. Artıq qonşu ölkədə 1 ay bundan əvvəl parlamentdə qəbul olunan sözügedən qanuna yenidən düzəliş edilməsi məsələsi gündəmə gəlib.

Bununla bağlı parlament çoxluğunu təşkil edən “Gürcü Arzusu - Demokratik Gürcüstan” Partiyası təkliflər verib. Hakim partiyanın deputatları qanuna növbəti dəyişiklik layihəsini parlamentə təqdim ediblər.

### Qrantlarla bağlı qaydalarda yeniliklər

Təxminən bir ay bundan əvvəl Gürcüstan parlamenti “Qrantlar haqqında” qanuna təklif olunan əlavə və dəyişiklikləri dəstəkləyib. Belə ki, 78 deputat qanun layihəsinin lehinə, 9 millət vəkili isə əleyhinə səs verib.

Qəbul edilmiş yeni dəyişikliklərə əsasən, qanunun müvafiq maddəsində göstərilən subyekt tərəfindən nağd və ya natura şəklində köçürülən vəsaitlər qrant hesab olunur. Fəaliyyəti əsasən Gürcüstanla bağlı məsələləri özündə ehtiva edən başqa bir dövlətdən olan hüquqi şəxs də qrant alan hesab olunur.

Bundan başqa, xaricdə qeydiyyatdan keçmiş hüquqi şəxslər qrant almamışdan əvvəl Gürcüstan hökumətindən müvafiq təsdiq və ya razılıq əldə etməlidirlər.

Gürcüstanda qeydiyyatdan keçmiş filialı, nümayəndəliyi və ya bölməsi olan başqa bir dövlətdən olan hüquqi şəxs razılıq olmadan qrant aldıqda, bu, məsuliyyətə səbəb olacaq. Gürcüstanda fondlar, müxtəlif təşkilatlar, onların müvafiq xarici “ana şirkətləri”nin nümayəndəlikləri və filialları vəsait aldıqları təqdirdə, müvafiq təsdiq üçün Gürcüstan hökumətinə müraciət etməli olacaqlar.

Qanun qüvvəyə minməzdən əvvəl qrant alanların qanun qüvvəyə mindikdən sonra Gürcüstan hökumətinə müraciət etmək üçün bir ay vaxtı olacaq. Öz növbəsində, Gürcüstan hökumətinin də təsdiq və ya rədd cavabı vermək üçün bir ay vaxtı olacaq.

Qəbul edilmiş düzəlişlərə əsasən, bu şəxslər bir ay ərzində vəsaiti, məsələn, kommunal xidmətlər və digər öhdəliklər üçün xərcləyə biləcəklər. Hökumət razılıq verməsə, bu şəxslər aldıqları qrantdan istifadəni dayandırmalı olacaqlar. Əks təqdirdə, onlar cinayət məsuliyyətinə cəlb ediləcəklər.

### Təklif olunan yeni düzəlişlərin mahiyyəti nədən ibarətdir?

Göründüyü kimi, Gürcüstan parlamentində bir ay bundan əvvəl dəstəklənən dəyişikliklərlə “Qrantlar haqqında” qanun əhəmiyyətli dərəcədə sərtləşdirlib. Belə ki, dəyişikliklərə əsasən “qrant” anlayışı daha konkret məzmunda təqdim olunur. Gürcüstan hakimiyyəti anlayır ki, gec də olsa xarici təsirlər məhdudlaşdırılmasa, milli dövlətçilik tamamilə itirilə bilər. Yaranmış zərurətdən çıxış edən hakim komanda dövlət quruculuğunda buraxılmış səhvləri nəzərə almaqla ölkənin real müstəqilliyinə və tam suverenliyinə nail olmaq istəyir və bu istiqamətdə qətiyyətli addımlar atır. “Gürcü Arzusu”nun təşəbbüsü ilə parlamentdə dəstəklənən qanun layihəsi də bu məqsədə xidmət edir. Parlamentin yaydığı məlumata görə, dəyişikliklər “qrant” anlayışını genişləndirir və dəqiqləşdirir. Yeni tərifə əsasən, qrant - Gürcüstan hökumətinə, dövlət qurumlarına və ya cəmiyyətin hər hansı bir hissəsinə təsir göstərmək niyyəti və ya inancı ilə həyata keçirilən və ya həyata keçiriləcək fəaliyyətlər üçün istifadə olunan vəsait hesab ediləcək. Bu, həmçinin Gürcüstanın daxili və xarici siyasətinin formalaşdırılması, həyata keçirilməsi və ya dəyişdirilməsinə yönəlmiş, eləcə də xarici dövlətlərin və ya xarici siyasi partiyaların siyasi və ictimai maraqları ilə bağlı fəaliyyətləri əhatə edir.

Bəs müvafiq qanuna təklif olunan yeni düzəlişlər özündə nəyi ehtiva edir? Parlament müzakirələrinə təqdim olunan yeni layihəyə əsasən, Gürcüstanda akkreditə olunmuş diplomatik nümayəndəliklər, konsulluq qurumları və beynəlxalq təşkilatlar tərəfindən ayrılan bəzi vəsaitlər qrant kimi qiymətləndirilməyəcək. Söhbət xarici dövlətlərin və ya siyasi partiyaların siyasi, ictimai maraqlarından irəli gələn, diplomatik nümayəndəliklərin öz fəaliyyəti ilə birbaşa əlaqəli olan maliyyə vəsaitlərindən gedir.

Dəyişiklikdə qeyd olunur ki, bu cür vəsaitlərin qrant hesab olunmaması qanunun daha aydın və vahid şəkildə tətbiqinə xidmət edəcək. Layihənin izahlı qeydinə görə, mövcud qanunvericilik bu münasibətləri tam əhatə etməsə də, yeni dəyişikliklər hüquqi boşluqları aradan qaldırmağa yönəlib.




### Hakim komandanın əsas hədəfi - milli maraqların qorunması

Qonşu və dost ölkədə hakim komandanın “Qrantlar haqqında” qanuna belə həssas yanaşması ölkədə yaranan vəziyyətdən, daha konkret desək, son vaxtlarda milli maraqlara artan təhdidlərdən qaynaqlanır. Reallıq ondan ibarətdir ki, Gürcüstan xaricdən maliyyələşən bir sıra icmaların, o cümlədən siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının milli maraqlarla ziddiyyət yaradan fəaliyyətlərinin kədərli nəticələri ilə üzləşir. Etiraf olunur ki, xaricdəki bəzi dairələr çirkin maliyyələr ötürməklə əslində Gürcüstan cəmiyyətinin bütün təbəqələrinə dərindən nüfuz edib. Vəziyyət o dərəcədə ciddi hal alıb ki, son parlament, prezident və bələdiyyə seçkiləri ərəfəsində ölkədə davamlı hal alan qarşıdurmalar yaşandı. Küçələrdən, parlamentdən başlayan ziddiyyətlər hakimiyyətin qolları arasında parçalanmaların baş verməsinədək genişləndi.

Donor təşkilatlarının siyahısında isə yenə də dünyanın ayrı-ayrı ölkələrində rəngli inqilablar və milli hökumətlərə qarşı digər pozuculuq əməlləri törətmiş təşkilatlar - Avropa İttifaqı, Soros Fondu kimi müxtəlif qurumlar yer alırlar. İndiyədək 100-dən çox ölkədə şəbəkə qurmağa nail olan, D.Trampın bir qədər bundan əvvəl ifşa etdiyi və artıq ləğv olunan ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) də burada “aktivliyini” xüsusi qeyd edə bilərik. Verilən məlumatına görə, Gürcüstanın qeyri-hökumət təşkilatları 2024-cü ildə ölkədə parlament seçkiləri ərəfəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyindən 41 milyon dollardan çox vəsait alıblar ki, bu da əslində qonşu ölkənin kədərli reallığını aydın şəkildə göz önündə canlandırır.

*Mübariz ABDULLAYEV*

# Yuvasını yandıran vulkan

## İvan Qonçarovun “Uçurum” romanı haqqında

**əvvəli ötən sayımızda**

Universitetə girəndən sonra Rayski yay tətilində nənəliyi Tatyana Markovna Berejkovanın yanına gedir. Nənə Borisin Volqa sahilindəki Malinovka kəndində yerləşən ata mülkünü idarə eləyir, üstəlik, ona nəvə, Borisə qohum düşən beş-altı yaşlı bir cüt qız uşağını da qanadları altında bəsləyib-böyüdüb tərbiyələndirir. Bacılardan böyüyü Vera, kiçiyi Marfa adlanır; kiçik bacı nənənin köhnə mülkün yanında tikdirdiyi təzə evdə Tatyana Markovna ilə birlikdə, böyüksə köhnə evdə qalır.

Rayskini ata mülkündə coşğun sevinclə, evin ağası kimi qarşılayırlar. Oğlan özünü analı, bacılı, dayılı, bir sözlə, doğmalı-arxalı sanmağa başlayır; sevimli dayı rolunu isə nənənin dostu, istefaya çıxandan sonra yaxın əyalət şəhərində özünə ev almış hərbçi Tit Nilıç Vatutin oynayır. Söz gəzir ki, Tatyana Markovna ilə Vatutin cavanlıqda bir-birini seviblər, ancaq böyükləri onların qovuşması baş tutmayıb, bu səbəbdən zavallı nənə qız qarıyıb.

Volqanın yaxasındakı uçurum Borisi özünə çəkir. Oradan ana təbiətə gözəl mənzərə açılır. Hələ onun yaşından qabaq, valideynlərinin sağlığında həmin uçurumun ayağında bir qısqanc ər arvadını məşuquyla birgə öldürüb, sonra da özünə qəsd eləyib. Meyitlər elə hadisə yerinəcə gömülüb. O zamandan uçurum adamların yaddaşında xatalı, nəhs bir yer kimi qalıb, hamı oradan gen dolanmağa çalışır, çox adam təkbaşına oralara enməkdən qorxur...

Tətildən sonra universitetə qayıdan Rayski oxumaqda çətinlik çəkir, başına heç nə batmır, gözünə ancaq obrazlar, surətlər görünür. Tezliklə o, yoxsul tələbə yoldaşı, keşiş oğlu Leonti Kozlova mehir salır, yunan, latın dillərini bilən Kozlov Rayskidə antik müəlliflərə maraq oyadır. Bundan sonra Boris şeir, nəsr parçaları yazmağa başlayır.

Universiteti bitirəndən sonra Rayski yunker rütbəsiylə qulluğa girir, “qızıl gənclik” deyilən təbəqəyə xas həyat keçirir. Daha sonra qulluq yerini dəyişən cavan yeni vəzifəsində də çox bənd almır, bir müddət də rəssamlıq akademiyasına ayaq döyür. Yarım ildən sonra çəkdiyi rəsmi ustadlar bəyənsələr də, ona sənətin sirlərini daha üç il öyrənməyi məsləhət görürlər. Rayski isə tələsir, qısa zamanda şöhrət qazanmaq istəyir. Buna görə də roman yazmağa keçir. Romanda iki il əvvəl ona aşiq olmuş Nataşa adlı həlim, itaətkar qızın ölümünü təsvir eləyir. Qızın müti sədaqəti onu bezdirdiyindən Boris Nataşanı almaq istəməmişdi. Beləcə, Rayski yeni romanın səhifələrini qaralamağa başlayır. Oxuduğumuz roman boyu biz onun öz romanı üçün material topladığını görürük.

Əslində, “Uçurum” romanı elə Rayskinin topladığı müşahidələrdən, yığdığı materiallardan, yaratdığı obrazlardan ibarətdir, yəni qəhrəman bir növ müəllifin alter-eqosudur. Ona görə “bir növ” dedim ki, əsərdə baş qəhrəmanın iştirak eləmədiyi, xəbərsiz qaldığı epizodlar da var, başqa sözlə, hər kəsi görən, hər şeyi bilən müəllif sevimli personajına bütün qüdrətini köçürməyib, bununla belə Turgenevə qıymadığı bir neçə romanlıq həyat materialını Rayskinin yaradıcılıq laboratoriyasına böyük səxavətlə bağışlayıb.

Boris Sofyanın portretini tamamlayıb qadına eşq elan eləyir. Sofya isə qohumuna dostluqdan başqa bir şey verə bilməyəcəyini söyləyib Borisə ümid yeri qoymur. Rayski qadının bir italyan qrafına uyduğundan şübhələnir. Rədd cavabı alandan sonra Boris Pavloviçin qaynamaqda olan ehtirasının köpüyü yatır.

***

Birinci hissəni romanın proloqu da saya bilərik. Bəzi tənqidçilər bu bölümdə mətləbin çox uzadıldığını desələr də, müəllif məramını, sonrakı bölümlərdə baş verəcəkləri daha dərindən anlamaq baxımından birinci hissəni diqqətlə öyrənmək vacibdir. İlk bölümdə al-əlvan ehtiras kəpənəyi hələ qanad çıxarmayıb, hələ tırtıl halındadır.

İkinci hissədə Rayski nənəliyinin xahişi, sifarişiylə Malinovka kəndinə yollanır. Tatyana Markovna onu yerin yiyəsi kimi qarşılayıb Borisə hesabat verməyə, onu təsərrüfatın gəlir-çıxarından agah eləməyə, onda öz mal-mülkünə, təhkimli kəndlilərinə qarşı ağalıq, sahiblik hissi oyatmağa çalışır, ancaq bu cür instinktlər Rayskiyə yaddır, onu dünya malı maraqlandırmır, gah rəiyyətə azadlıq vermək, gah da mülkünü Vera-Marfa bacılarına bağışlamaq, onlar arasında bölmək fikrinə düşür. Onun belə qismətinə asi, havalı fikirləri qohumlarının əmanəti, nəvələrinin mirası üstündə əsən tədbirli, təsərrüfatcıl nənəni qorxuya salır, təcrübəli qadın anlayır ki, Borisə qalsa, var-yoxunu ya satacaq, ya da girov qoyacaq, ona görə də daşıdığı yükü ölənəcən çəkməyə razılaşır. Yetimlərə gəlincə, onların cehizləri hazırdır, sədəqə kimi verilən sərvətə isə ehtiyacları yoxdur.

Rayskini ilk qarşılayanlardan biri iyirmi yaşlarında ərgən qıza çevrilmiş sarışın, saf, şən Marfa olur. Vera isə çayın o tayında - rəfiqəlik elədiyi keşiş arvadının yanındadır. Rayski çoxdan görmədiyi, bir az səhraya, bir az da qəbiristanlığa bənzəyən şəhəri gəzib dolaşır. Bu şəhər onun romanı üçün yaxşı çərçivə, fon rolu oynaya bilər. Əsərin mərkəzinə Marfanı qoymaq olardı, ancaq onda ehtiras, yanğı çatmır, nənəsinin sözündən qətiyyən çıxmaz, düz, rahat yoldan əsla sapmaz, özü də qorxaqdır, Rayskiyə qoşulub uçuruma enmək istəmədi.

Şəhərdə Boris tələbəlik yoldaşı, gimnaziya müəllimi Kozlovu tapır. Leonti antik ədəbiyyatın içində itib-batıb. Rayski onun şəhərin qırağında, öz mülkünə yaxın bir evdə yerləşməsinə kömək göstərib, bütün kitabxanasını onun ixtiyarına verib, hərçənd kitablardan bir neçəsini Mark Voloxov adlı şuluq adam korlayıb. Leonti üç min nüsxəlik kitabxananın kataloqunu tərtib eləyib, sonra bilinir ki, bu işdə Vera da ona yardım göstərib. Rayski kitabxanasını Kozlova bağışlayır, dostunu həyatdan uzaq düşməkdə qınayır.

Kozlov dostların hələ tələbəlik çağından tanıdıqları Ulyana ilə evlənib. Özü gözəgəlimli olmayan Leonti arvadına vurğundur, qadının boy-buxunu, qədd-qaməti ona antik heykəlləri xatırladır. Kozlov Ulyanaya universiteti bitirdiklərindən beş il sonra elçi düşüb, onda qız atası öldüyünə görə bibisiylə qalırmış, özü də möhkəm xəstəymiş. Sonradan Ulyana Kozlovu sevmədiyini, onun çağırışına yalnız ərə getmək xatirinə razılıq verdiyini Rayskiyə etiraf eləyir.

***

Yerdən qopuq nəvəsinin romantik xəyallarla, göylərlə əlləşməyi nənəliyi nigaran qoyur, ona elə gəlir ki, buna görə tale Borisi cəzalandıracaq. Yüngülcə toqquşmalardan sonra nənə-bala sülhə gəlib öz aralarında şifahi müqavilə bağlayırlar: hər kəs öz istədiyi, öz bildiyi kimi yaşasın. Əslində, bununla hərə həyatda ona ayrılmış postuna çəkilir, hər kəs öz payına düşən missiyanı yerinə yetirmək üçün işinin başına qayıdır. Bundan sonra nənəylə nəvə arasında ciddi konflikt yaranmır, Tatyana Markovna hər şeyi bir stoik inancıyla tapındığı əlahəzrət Talenin ixtiyarına buraxır, Boris Pavloviç isə əlində Diogen çırağı bir geoloq həvəsiylə odlu-alovlu duyğu yataqları, ehtiras vulkanları axtarmağa davam eləyir.

Marfa - nənəsinin qüdrətli qanadları altına sığınmış qayğısız, məsum sarıdimdik cücədir; Rayski onda qadınlıq ehtirası oyatmağa çalışsa da, alınmır, Marfa onun dediklərini anlamır, eyhamlarını tutmur, nə istədiyini başa düşmür, bu səbəbdən günahsız qəlbini nənəyə açmağa da ehtiyac duymur. Rayski onun portretini yaradır, xarakterini formalaşdıran cizgiləri düzgün oxumağa çalışır, sonra da Nataşa haqqında yazdıqlarına düzəlişlər eləyir ki, bütün bunları romana oturda bilsin.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Normanı aşan yağıntılar...

## Yağıntının “norması” necə təyin edilir?



Son günlər yağan intensiv yağışlar bir daha göstərdi ki, təbiətin gücü qarşısında olduqca həssasıq. Qısa müddətdə yağan leysanlar küçələri sanki çaylara çevirmişdi, bəzi ərazilərdə nəqliyyat iflic oldu, evlərə və obyektlərə ciddi ziyan dəydi.

Normanı aşan yağıntılar bir çox problemlərə səbəb ola bilər: Məsələn sel və daşqınlar, torpaq sürüşmələri, şəhər infrastrukturunda problemlər, kənd təsərrüfatına ziyan və.s Son günlər müşahidə etdiyimiz fəsadlar da məhz normadan artıq və qısa müddətdə düşən intensiv yağıntının nəticəsidir.

Bütün bunlar bir daha göstərdi ki, təbiətin ritmini anlamaq və ölçmək nə qədər vacibdir. Bəs tez-tez eşitdiyimiz “yağıntı norması” nədir və bu necə müəyyən olunur?

Yağıntı norması müəyyən bir ərazi üçün uzun illər ərzində (adətən 30 il) müşahidə olunan orta yağıntı miqdarıdır. Bu göstərici sayəsində meteoroloqlar konkret bir gün, ay və ya mövsümdə düşən yağışın “adi”, yoxsa “normadan artıq” olduğunu müəyyən edə bilirlər.

**Yağıntı normasının ölçülməsi**

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən ekoloq Rövşən Abbasov bildirib ki, yağıntı norması təsadüfi şəkildə yox, ciddi elmi metodlarla hesablanır: “Müəyyən ərazidə uzun illər ərzində gündəlik yağış ölçülür. Bu ölçmələr xüsusi cihaz - pluviometr (yağışölçən) vasitəsilə aparılır. Toplanan məlumatlar isə aylıq və illik ortalamalara çevrilir. Nəticədə həmin ərazi üçün “iqlim norması” formalaşır. Məsələn, əgər bir şəhərdə aprel ayı üçün orta yağıntı 30 mm-dirsə, amma bu il 70 mm düşübsə, deməli yağıntı normadan xeyli artıq olub”.

**Müəyyən proqnozlar verilsə belə...**

Ekoloq deyib ki, bəzən aylıq deyil, hətta illik yağıntı normasının böyük bir hissəsi çox qısa müddət ərzində düşür, ilin qalan dövründə isə kəskin quraqlıq yaşanır: “Bu isə həm idarəetmə baxımından ciddi problemlər yaradır, həm də kənd təsərrüfatında su çatışmazlığına, nəticə etibarilə isə ərzaq qıtlığına səbəb ola bilər. Bu cür hadisələri dəqiq proqnozlaşdırmaq çox çətindir, hətta müəyyən proqnozlar verilsə belə, belə ekstremal hallara tam hazır olmaq da asan deyil. Bakı şəhərində yağış sularının idarə olunması sisteminin təkmilləşdirilməsinə ciddi ehtiyac var”.

*Yeganə BAYRAMOVA*

# Müasir dövrün “kollektor” bəlası...

## Sökülən kollektor nə vaxtdan mövcuddur?

Son günlər yağan leysan yağışlar zamanı paytaxtda baş verən neqativ hadisələr bir daha göstərdi ki, şəhərsalma qaydalarına məhəl qoyulmaması nə qədər ciddi fəsadlara gətirib çıxara bilər. Xətai rayonunda kollektor xəttinin çökməsi nəticəsində fərdi yaşayış evlərindən birinin sökülməsi təkcə lokal hadisə deyil, illərdir yığılıb qalan problemlərin açıq şəkildə üzə çıxmasıdır.

Məsələ ondadır ki, bəzi yaşayış evləri vaxtilə mühəndis-kommunikasiya xətlərinin, xüsusilə kanalizasiya kollektorlarının üzərində və ya çox yaxınlığında inşa edilib. İlk baxışdan təhlükəsiz görünən bu tikililər əslində görünməyən risk zonasında yerləşir. Çünki torpağın altında yerləşən kollektor xətləri zamanla aşınır, çökmə ehtimalı artır və nəticədə üstündə yerləşən tikililər üçün ciddi təhlükə yaranır.

Bəs kollektorların üzərində tikilmiş fərdi yaşayış evlərinin aqibəti necə olacaq?

## Kollektorların üzərində 1600 ev tikilib

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən verilən məlumata görə, Bakı Sukanal İdarəsinin balansında və istismarında olan kanalizasiya və yağış kollektorlarının mühafizə zolağı və üzərində 1 600-ə yaxın tikili mövcuddur.

Açıqlamada qeyd olunub ki, kollektorların üzərində və ya mühafizə zonalarında yeni tikililərin qarşısını almaq üçün hər hansı tikinti aşkarlandıqda aidiyyəti qurumlara müraciət edilir və hüquqi tədbirlərin görülməsi üçün addımlar atılır: “Mövcud vəziyyətin təhlükəsi kollektorlar üzərində ev inşa edilmiş bütün yaşayış obyektlərinə aiddir. Belə ki, su və ya kanalizasiya kollektorlarının üzərində yerləşən tikililər daimi risk altındadır. Məhz bu səbəbdən su və tullantı su kollektorlarının, magistral və paylayıcı xətlərin üzərində, eləcə də onların mühafizə zolaqlarında hər hansı tikinti və ya qazıntı işlərinin aparılması qanuna ziddir”.

Qeyd olunub ki, hazırkı halda kollektorun üzərində tikilən evlərin sahiblərinə bir neçə il ərzində dəfələrlə xəbərdarlıq məktubları göndərilib, şifahi və yazılı formada məlumatlar verilib, bildirişlər təqdim olunub:

## Xəbərdarlıq məktubları göndərilib...

“Vətəndaşların diqqətinə çatdırılıb ki, bu ərazidə hər an hadisə baş verə bilər və belə bir hal səbəbindən kollektorun istismarını, təmir və bərpasını icra etmək mümkünsüzləşir. Bu xəbərdarlıqlardan sonra məsələ, həmçinin hüquqi müstəviyə də daşınıb.



Qanunvericiliyin tələblərinə əsasən, su və kanalizasiya kollektorlarının, magistral və paylayıcı xətlərin üzərində, həmçinin mühafizə zolaqlarında hər hansı tikinti və ya qazıntı işlərinin aparılması qadağandır. Bununla bağlı mütəmadi olaraq müxtəlif vasitələrlə vətəndaşlara məlumatlar verilir, xəbərdarlıq olunur”.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən qeyd olunub ki, kollektor xətlərinin üzərində tikilmiş fərdi yaşayış evlərinin aqibəti, onların mərhələli şəkildə sökülüb-sökülməyəcəyi, eləcə də söküntü nəzərdə tutulduğu halda sakinlərə kompensasiya verilməsi və ya alternativ yaşayış yeri ilə təmin olunması məsələləri qurumun səlahiyyətlərinə aid deyil.

## 30-50 il əvvəl tikilmiş kollektorlar...

Magistral kanalizasiya kollektorları iri diametrli və illərdir torpağın altında fəaliyyət göstərən mühəndis qurğularıdır. Mütəxəssislərin fikrincə, əgər bu qurğular layihə tələblərinə uyğun inşa olunub və mütəmadi texniki nəzarət altındadırsa, onların üzərində yolun, hətta yüngül tikililərin yerləşdirilməsi mümkündür. Lakin problem əsasən nəzarətin zəiflədiyi hallarda ortaya çıxır. Kollektorlar üçün əsas təhlükə üç səbəbdən qaynaqlanır:

Birinci risk amili köhnəlmədir. Belə ki, ölkədə mövcud olan bir çox kollektorlar 30-50 il əvvəl tikilib və zamanla beton, metal konstruksiyalar, eləcə də birləşmələr aşınmaya məruz qalır.

İkinci təhlükə sızma və torpağın yuyulması ilə bağlıdır. Kollektorun divarlarında yaranan çatlar nəticəsində axıntılar torpağı tədricən yuyur, torpaq boşalır və üst qat zəifləyir. Nəticədə çökmə prosesi səssiz və mərhələli şəkildə başlayır, lakin son mərhələdə qəfil baş verə bilir.

Üçüncü risk faktoru isə normadan artıq yüklənmədir. Ekspertlər bildirirlər ki, layihədə nəzərdə tutulmayan ağır binaların, iri obyektlərin tikilməsi və intensiv ağır nəqliyyatın hərəkəti kollektor sistemləri üçün ciddi təhlükə yaradır.

Təhlükəsizlik eksperti Orxan Musayev mediaya açıqlamasında bildirib ki, məsələnin ən təhlükəli tərəfi qəfil çökmə hallarının baş verməsidir. Bu cür çökmələr çox vaxt əvvəlcədən ciddi əlamət vermədən, bir neçə saniyə ərzində baş verir.

Dünyada və regionda bu tip hadisələrin çoxsaylı nümunələrinin olduğunu vurğulayan ekspert deyib ki, nəticədə yollar çökür, avtomobillər yerin altına düşür, binalarda çatlar yaranır və bu artıq texniki yox, birbaşa insan həyatı ilə bağlı təhlükədir. Təcrübədə çökmə zonasında yaşayan insanların həyatını itirdiyi hallar da qeydə alınıb:

“Bu cür hadisələrin baş verməsindən əvvəl bəzi xəbərdaredici əlamətlər müşahidə olunur. Bunlara yollarda və həyətlərdə çatların əmələ gəlməsi, asfalt və torpağın tədricən çökməsi, pis qoxunun və kanalizasiya səslərinin yaranması, eləcə də yağışdan sonra ərazidə qeyri-adi boşluqların və çuxurların meydana çıxması daxildir”.

Onun sözlərinə görə, bu əlamətlər müşahidə edildiyi halda “keçər” yanaşması ilə davranmaq olmaz və dərhal aidiyyəti qurumlara məlumat verilməlidir. Çünki vaxtında görülən tədbirlər ağır fəsadların qarşısını almağa imkan verir.

Orxan Musayev vurğulayıb ki, ən böyük səhv kollektorların görünmədiyi üçün təhlükəsiz hesab edilməsidir. Onun fikrincə, yeraltı infrastruktura nəzarət yerüstü obyektlər qədər, hətta onlardan daha vacibdir. Kollektorların üzərində salınan hər bir yol və tikilən hər bir bina ciddi məsuliyyət tələb edir və bu məsuliyyət layihəçilərin, icraçıların və nəzarət edən qurumların üzərinə düşür:

“Vaxtında və düzgün şəkildə aparılan texniki baxışlar, monitorinq və nəzarət tədbirləri riskləri idarəolunan səviyyədə saxlamağa imkan verir. Əks halda isə bu cür halların ağır nəticələrə səbəb ola biləcəyi qaçılmazdır”.

## Harada ev tikmək qadağandır?

Aşağıdakı zonalarda yaşayış evlərinin tikintisinə icazə verilmir:

Tarixi və mədəni abidələrin mühafizə zonaları

Avtomobil yollarının kənarları

Hərbi obyektlərə yaxın ərazilər

Su mühafizə zonaları

Magistral boru xətləri və kollektorların üzəri

Yüksək gərginlikli elektrik xətləri keçən sahələr

Sürüşmə və digər təhlükəli geoloji zonalar

Neft və qaz kəmərlərinin ətrafı

*Yeganə BAYRAMOVA*

# “Azercell Telekom” “Tələbə Təqaüdü Proqramı”nın qaliblərini təbrik edib

## *Bu il 15 tələbə “Azercell”dən təqaüd qazanıb*

“Azercell Telekom” MMC-nin fevral ayında elan etdiyi “Tələbə Təqaüdü Proqramı”nın qalibləri müəyyənləşib. Proqram Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illəri əhatə edən strateji hədəflərə uyğun olaraq həyata keçirilib və STEM istiqamətləri üzrə təhsil alan gənclərin dəstəklənməsinə yönəlib.

Bu il proqrama ümumilikdə 1500-dən çox müraciət daxil olub. Müraciətlərin ilkin qiymətləndirilməsi, namizədlərin bilik və bacarıqlarının yoxlanılması, həmçinin analitik düşünmə qabiliyyətini ölçən mərhələli seçim prosesi nəticəsində 15 tələbə “Azercell”in təqaüdünə layiq görülüb. Qaliblər Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, ADA Universiteti, UFAZ, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Mühəndislik Universiteti kimi ölkənin aparıcı ali təhsil müəssisələrində təhsil alırlar.

“Azercell” nümayəndələri proqram qalibləri ilə görüş keçirərək onları bu nailiyyət münasibətilə təbrik edib, xüsusi sertifikatlarla mükafatlandırıblar. Görüş zamanı tələbələri maraqlandıran suallar cavablandırılıb, şirkətin fəaliyyət istiqamətləri və gənclər üçün yaratdığı imkanlar barədə ətraflı məlumat təqdim olunub.

Qeyd edək ki, “Azercell Telekom” MMC “Tələbə Təqaüdü Proqramı”nı 2007-ci ildən həyata keçirir. Bu günədək şirkət ümumilikdə 300-dən çox tələbəni təqaüdlə təmin edib.

Azercell


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5206
Sifariş: 466
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova